**UOT 32**

# GƏNCLƏRLƏ İŞ ÜZRƏ BEYNƏLXALQ NORMATİV TƏNZİMLƏMƏLƏR VƏ STANDARTLAR

**Murad HƏSƏNXANLI*** 

Məqalə redaksiyaya daxil olmuşdur: 26 dekabr 2024; çapa qəbul edilmişdir: 27 aprel 2025; online-da çap edilmişdir: 15 may 2025.

Received: 26th of December, 2024; accepted: 27th of April, 2025; published online: 15th of May, 2025.

**Açar sözlər:** *gənclərlə iş, beynəlxalq hüquq, beynəlxalq standart, qanunvericilik, BMT, Avropa İttifaqı, Avropa Şurası*

## Giriş

Gənclərlə iş üzrə beynəlxalq normativ tənzimləmələr və standartlar mövzusu müasir dövrdə xüsusilə əhəmiyyətlidir. Qlobal səviyyədə gənclərin sosial, iqtisadi və siyasi proseslərə inteqrasiyası dövlətlərin və beynəlxalq təşkilatların prioritetləri sırasındadır. Gənclərin təhsil, məşğulluq və sosial rifah sahələrində hüquqlarının qorunması və inkişafı, həmçinin onların iştirakçılığının artırılması məsələləri hər bir cəmiyyətin davamlı inkişafında mühüm rol oynayır. Bu baxımdan, BMT və Avropa təşkilatlarının qəbul etdiyi normativ sənədlər qlobal və milli səviyyədə gənclərlə işin təkmilləşdirilməsində əsas meyarlar kimi çıxış edir.

Qeyd etməliyik ki, tədqiqatın əsas məqsədi gənclərlə iş üzrə beynəlxalq normativ tənzimləmələrin və standartların tədqiqi və onların Azərbaycan Respublikasının milli qanunvericiliyinə təsirinin öyrənilməsidir. Bu sahədə mövcud beynəlxalq hüquqi çərçivələrin təhlili həm Azərbaycan, həm də qlobal səviyyədə gənclərin hüquqlarının və sosial inteqrasiyasının inkişafına dair yeni yanaşmaların müəyyən olunmasına töhfə verəcəkdir. Tədqiqat beynəlxalq hüquq və sosial siyasət sahəsində mövcud ədəbiyyata yeni faktlar və məlumatlar əlavə edərək, bu sahədə elmi diskursun genişləndirilməsinə xidmət edəcəkdir.

Bu tədqiqat, əsasən, hüquqi sənədlərin analizi, müqayisəli təhlil və normativ hüquqi çərçivələrin araşdırılması metodlarına əsaslanır. BMT, Avropa Şurası və Avropa İttifaqının gənclərlə bağlı qəbul etdiyi əsas sənədlər və strategiyalar təhlil edilərək, onların Azərbaycan qanunvericiliyi ilə əlaqəsi öyrənilir.

## 1. Gənclərlə işin təşkilində BMT standartları

Qanunvericilik sahəsinə baxış zamanı BMT-nin gənclərlə iş sahəsində beynəlxalq təcrübələrdəki rolunu xüsusi qeyd etmək olar. BMT-nin Minilliyin Bəyannaməsində dövlətlərə Uşaq Hüquqları Konvensiyasını və onun uşaqların silahlı münaqişələrə cəlb edilməsi, uşaq alveri, fahişəliyi və uşaq pornoqrafiyasına qarşı əlavə protokollarını ratifikasiya etmək və tam icra etmək öhdəliyi xatırladılır. BMT Baş Assambleyası 1969-cu ildən başlayaraq milli gənclər siyasətinə dair mühüm qərarlar qəbul etmişdir, və həmin

*doktorant, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
*e-mail:* mhsnxanli@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.1046**

vaxtdan etibarən BMT Katibliyi bu siyasətlərin tətbiqini dəstəkləmişdir. Milli gənclər siyasəti bütün gəncləri əhatə edən və təhsil, təlim, məşğulluq, sosial rifah, mədəni fəaliyyətlər və iqtisadi iştirak kimi müxtəlif sahələri əhatə edən proqramların inkişaf etdirilməsini nəzərdə tutur.

1969-cu ildə BMT Baş Assambleyası milli gənclər siyasətinə dair ilk mandatı qəbul etdi [10]. Bu mandat dövlətləri, gənclərin təhsili, sağlamlığı və sosial rifahı ilə bağlı problemləri həll etmək üçün milli səviyyədə tədbirlər görməyə çağırdı. Gənclərin hüquqlarını təmin etmək, onların təhsildən tutmuş məşğulluğa qədər müxtəlif sahələrdə iştirakını genişləndirmək bu siyasətlərin əsas məqsədləri idi. BMT-nin 1985-ci ili "Beynəlxalq Gənclər İli" elan etməsi ilə milli gənclər siyasəti mövzusunda yeni bir dönəm başladı [6]. Bu il çərçivəsində gənclərin problemləri daha geniş müzakirə edildi və dövlətlərə bu sahədə konkret proqramların həyata keçirilməsi tövsiyə olundu. Beynəlxalq gənclər ilinin əsas mövzuları üç istiqamətdə fokuslanmışdı: iştirak, inkişaf və sülh. Bu mandat gənclərin cəmiyyətdə daha fəal rol oynamasını təşviq edirdi.

BMT-nin Uşaq Hüquqları Konvensiyası (*CRC – Convention on the Rights of the Child*) gənclərin və uşaqların hüquqlarını qorumaq üçün qəbul edilmiş ən vacib beynəlxalq sənədlərdən biridir. 1989-cu ildə qəbul edilmiş bu sənəd, dünya miqyasında gənclərin təhsil, sağlamlıq, sosial müdafiə və digər sahələrdə hüquqlarının qorunması və müdafiəsi məqsədini daşıyır. Konvensiya dünya üzrə uşaqların qarşılaşdığı müxtəlif problemlərin həllinə yönəlib, məsələn: uşaqların təhsil hüququ, onların istismar edilməməsi, sağlam həyat tərzinə çıxışın təmin edilməsi və s. BMT-nin Uşaq Hüquqları Konvensiyasının əsas məqsədi gənclərin hüquqlarının müdafiəsi və onların sağlam, təhsil və sosial sahələrdə hüquqlarının təmin edilməsidir. Bu konvensiyanın qəbul edilməsi ilə dövlətlər uşaqların təməl hüquqlarını tanıyır və onların inkişafı üçün lazım olan şəraiti yaratmaq öhdəliyini götürür. Konvensiyanın əsas prinsipləri aşağıdakılardır:

*1. Diskriminasiyasızlıq* – Hər bir uşaq irqinə, dininə, cinsinə, dilinə, sosial statusuna və ya digər xüsusiyyətlərinə görə heç bir ayrı-seçkilik olmadan bərabər hüquqlara malikdir.

*2. Uşağın mənafeyinin üstün tutulması* – Uşağın maraqları hər bir qərarın qəbulunda üstün tutulmalıdır. Dövlətlər və cəmiyyət bu prinsipi əsas götürməlidir.

*3. Yaşamaq və inkişaf etmək hüququ* – Hər bir uşağın yaşamaq və sağlam şəkildə inkişaf etmək hüququ vardır.

*4. Uşağın fikirlərinin ifadə edilməsinə və dinlənilməsinə hörmət* – Uşaqlar öz maraqlarını və fikirlərini açıq şəkildə ifadə edə bilməli və onların fikirlərinə diqqət yetirilməlidir [3].

BMT-nin Uşaq Hüquqları Konvensiyası gənclərlə iş sahəsində beynəlxalq qanunvericilik çərçivəsində mühüm rol oynayır. Bu sənəd gənclərin inkişafı, onların cəmiyyətə inteqrasiyası və gələcək həyatlarında uğurlu olmaqları üçün vacib addımların atılmasını tələb edir. Gənclər sosial inkişafın mühüm hissəsi olduğuna görə, dövlətlər bu sənədin prinsiplərini rəhbər tutaraq milli qanunvericiliklərini tənzimləməli və gənclərə yönəlik müxtəlif proqramlar həyata keçirməlidirlər.

Konvensiyanın 28-ci maddəsində hər bir uşağın təhsil hüququ təsbit olunub. Bu, dövlətlərə uşaqların məktəb təhsili almaq hüququnu təmin etmək və keyfiyyətli təhsilə əlçatanlığı artırmaq öhdəliyini verir. Gənclərlə iş sahəsində bu müddəa xüsusi əhəmiyyət daşıyır, çünki təhsil gənclərin gələcəkdə cəmiyyətə inteqrasiya etməsi və onların şəxsi inkişafı üçün əsas vasitələrdən biridir. BMT-nin Uşaq Hüquqları Konvensiyasının 24-cü maddəsi hər bir uşağın ən yüksək səviyyədə sağlamlıq hüququnu tanıyır. Bu hüquq çərçivəsində dövlətlər gənclərin sağlamlıqlarını təmin etmək üçün tibbi xidmətlərə çıxışlarını artırmalı, onların xəstəliklərdən qorunmasına və zərərli vərdişlərdən uzaq durmasına kömək etməlidir. Gənclərin sağlamlığı onların ümumi inkişafında və cəmiyyətin rifahında

mühüm yer tutur. Konvensiya çərçivəsində gənclərin sosial və iqtisadi hüquqları da xüsusi olaraq vurğulanıb. Gənclərin iqtisadi cəhətdən cəmiyyətin fəal üzvünə çevrilməsi üçün dövlətlər məşğulluq sahəsində dəstək proqramları həyata keçirməlidir. Bu, xüsusilə yoxsulluq və sosial təcrid şəraitində yaşayan gənclər üçün vacibdir. Dövlətlər bu gənclərə iş imkanları yaratmaq, iqtisadi çətinlikləri aradan qaldırmaq üçün proqramlar təşkil etməklə onlara dəstək verməlidir [4].

BMT-nin Uşaq Hüquqları Konvensiyası dövlətlərə geniş öhdəliklər qoyur. Dövlətlər bu sənədi ratifikasiya etdikdən sonra gənclərin hüquqlarını qorumaq və onların təhsil, məşğulluq, sağlamlıq və sosial müdafiə sahələrində imkanlarını genişləndirmək üçün tədbirlər görməyə borcludur. Dövlətlər, həmçinin uşaq hüquqlarının pozulması hallarında tədbirlər görməli və beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək bu məsələlərin həllinə töhfə verməlidir [3].

2000-ci ildə qəbul edilmiş BMT-nin Minilliyin Bəyannaməsi ilə dövlətlər uşaq və gənclərlə bağlı xüsusi öhdəliklər götürdülər. Bu bəyannamə çərçivəsində, Uşaq Hüquqları haqqında Konvensiyanın ratifikasiyası və onun silahlı münaqişələrə, uşaq alverinə və digər zərərli fəaliyyətlərə dair əlavə protokollarının həyata keçirilməsi diqqət mərkəzində idi. Dövlətlər xüsusilə bu protokolların həyata keçirilməsini və gənclərin müdafiəsi ilə bağlı beynəlxalq hüquqi normaların tətbiqini gücləndirməyə çağırıldılar [11].

2010-cu ildə BMT-nin yeni qlobal gənclər strategiyası işə düşdü. Bu strategiya gənclərin inkişafını daha geniş çərçivədə dəstəkləyən proqramlar və təşəbbüslər təklif edirdi. Bu strategiya xüsusən təhsil, məşğulluq, sağlamlıq və gənclərin ictimai həyatdakı rolu ilə bağlı siyasətləri gücləndirməyi nəzərdə tuturdu. Bu dövrdən etibarən BMT milli gənclər siyasətlərini həyata keçirmək üçün ölkələrə daha çox dəstək verməyə başladı.

BMT Gənclər Strategiyası (2018-2030) BMT-nin gənclərlə bağlı daha əvvəlki fəaliyyətlərindən, xüsusilə də BMT-nin Uşaq Hüquqları Konvensiyasından irəli gəlir. 2018-ci ildə BMT Baş Katibliyi gənclərin hüquqlarını və inkişafını dəstəkləmək məqsədilə daha genişmiqyaslı strategiyanı təqdim etdi. Strategiyanın əsas məqsədi 2030-cu ilədək davamlı inkişaf məqsədlərinin (SDG-lər) həyata keçirilməsində gənclərin əsas rolunu vurğulamaqdır. Gənclərin cəmiyyətin bütün sahələrinə bərabərhüquqlu şəkildə inteqrasiyasını təmin etmək, onların təhsil və məşğulluq imkanlarını artırmaq bu strategiyanın əsas hədəflərindəndir. BMT Gənclər Strategiyası 2018-2030 aşağıdakı əsas məqsədləri və prinsipləri əhatə edir:

1. *Gənclərin səsini gücləndirmək.* Strategiyanın əsas məqsədlərindən biri gənclərin səsinin daha güclü çıxmasını təmin etməkdir. Gənclərin sosial, siyasi və iqtisadi qərarların qəbulunda fəal iştirakı təşviq edilir və onların liderlik bacarıqlarının inkişafına dəstək göstərilir. Gənclərin qərar qəbul edən proseslərdə iştirakı üçün xüsusi mexanizmlər yaradılır.

2. *Təhsil və bacarıqların inkişafı.* Gənclərin təhsil hüququnun təmin edilməsi və onların rəqabət qabiliyyətli peşə bacarıqlarına sahib olmasının təşviqi strategiyanın əsas komponentlərindən biridir. BMT gənclərin təhsil imkanlarına bərabər çıxışını təmin etmək üçün dövlətləri dəstəkləyir və onların bilik və bacarıqlarının inkişafına yönəlmiş proqramlar həyata keçirir.

3. *Sağlamlıq hüququnun təmin olunması.* Gənclərin sağlamlıq hüquqlarının təmin olunması və onların sağlam həyat tərzinin dəstəklənməsi BMT Gənclər Strategiyasının vacib istiqamətlərindən biridir. Gənclərin fiziki və psixi sağlamlığı sağlamlıq xidmətlərinə çıxışın artırılması və onların zərərli vərdişlərdən qorunması üçün dövlətlərə xüsusi tövsiyələr verilir.

4. *İnsan hüquqları və ədalət.* Gənclərin insan hüquqlarının müdafiəsi, onların cəmiyyətdə bərabər imkanlara malik olması və ədalətli hüquqi müdafiədən istifadə edə bilməsi üçün dövlətlərə dəstək göstərilir. Strategiya gənclərin hüquqlarının pozulmasına

qarşı mübarizə aparmaq üçün qlobal hüquqi çərçivələri dəstəkləyir.

5. *Davamlı inkişaf və ətraf mühit.* Gənclər davamlı inkişafın əsas iştirakçıları kimi qəbul edilir və onların ətraf mühitin qorunmasında və iqlim dəyişikliyi ilə mübarizədə rolu gücləndirilir. BMT gənclərin ekoloji layihələrə və davamlı inkişaf təşəbbüslərinə cəlb edilməsinə xüsusi diqqət yetirir [12].

BMT Gənclər Strategiyası gənclərin hüquqlarının qorunması və onların sosial inkişafı üçün qlobal miqyasda hərtərəfli tədbirlərin həyata keçirilməsini təmin edir. Bu strategiyanın tətbiqi aşağıdakı əsas sahələri əhatə edir:

1. *Təhsil və məşğulluq imkanlarının artırılması.* Gənclərin rəqabətə davamlı peşəkar bacarıqlara sahib olmalarını təmin etmək üçün təhsil proqramlarının genişləndirilməsi və gənclərin məşğulluq imkanlarının artırılması üçün xüsusi proqramlar həyata keçirilir. Bu məqsədlə BMT dövlətlərə texniki dəstək göstərir və gənclərin əmək bazarına inteqrasiyasını asanlaşdıran təşəbbüsləri təşviq edir.

2. *Sağlamlıq proqramlarının inkişafı.* BMT Gənclər Strategiyası gənclərin sağlamlıq hüquqlarının qorunması üçün dövlətlərə xüsusi proqramlar həyata keçirməyi tövsiyə edir. Gənclərin tibbi xidmətlərə çıxışı genişləndirilir, onların sağlam həyat tərzi barədə məlumatlılığı artırılır və zərərli vərdişlərdən qorunması üçün maarifləndirici proqramlar təşkil edilir.

3. *Gənc qadınların hüquqlarının müdafiəsi.* Strategiya çərçivəsində qadın gənclərin hüquqlarının müdafiəsi xüsusi önəm daşıyır. Cinslər arasında bərabərsizliyin aradan qaldırılması və qadın gənclərin sosial, iqtisadi və siyasi həyatda bərabər imkanlara malik olması üçün dövlətlərə dəstək verilir. Qızların təhsil alması və erkən nikahların qarşısının alınması kimi məsələlər də strategiyanın prioritetləri sırasındadır.

4. *Sosial inteqrasiya və gənclərin qlobal şəbəkələrə əlaqələndirilməsi.* Strategiya gənclərin sosial inteqrasiyasını və qlobal gənclər şəbəkələrinə qoşulmasını təşviq edir. Bu çərçivədə, gənclərin müxtəlif qlobal və regional proqramlarda iştirakını təmin etmək üçün texniki və maliyyə dəstəyi göstərilir.

5. *Ətraf mühitin qorunmasında gənclərin rolunun gücləndirilməsi.* BMT Gənclər Strategiyası gənclərin ekoloji problemlərin həllində əsas oyunçu kimi qəbul edilməsini təmin edir. Gənclər iqlim dəyişikliyi ilə mübarizədə, təbii sərvətlərin qorunmasında və dayanıqlı inkişaf hədəflərinin həyata keçirilməsində fəal iştirak etməyə təşviq edilir [12].

BMT Gənclər Strategiyası gənclərin hüquqlarının qorunması və onların cəmiyyətin bütün sahələrinə inteqrasiyası üçün qlobal səviyyədə böyük təsir göstərmişdir. Bu strategiyanın tətbiqi dövlətlərə gənclərlə bağlı siyasətlərini gücləndirməyə və onları qlobal inkişaf proseslərinə daha fəal şəkildə cəlb etməyə yardım edir. Dövlətlər də öz növbəsində BMT Gənclər Strategiyasını rəhbər tutaraq, gənclərlə bağlı milli qanunvericiliklərini yenidən nəzərdən keçirmiş və gənclərin hüquqlarını təmin etmək üçün xüsusi proqramlar həyata keçirmişlər. Strategiyanın qlobal icmaya təsiri, gənclərin qlobal və regional səviyyədə daha fəal rol oynaması və onların sosial və iqtisadi rifahının yaxşılaşdırılmasında özünü göstərmişdir.

## 2. Gənclərlə iş üzrə Avropa təşkilatlarının sənədləri

2000-ci illərdə Avropa Şurası gənclərin hüquqlarını müdafiə etmək və onların inkişafını dəstəkləmək üçün bir sıra vacib təşəbbüslərə və proqramlara start verdi. Bu dövrdə gənclərin Avropa cəmiyyətlərində daha fəal iştirakı və hüquqlarının müdafiəsi üçün müxtəlif proqramlar icra olundu. Avropa Şurasının gənclərlə bağlı əsas siyasət sənədləri və proqramları aşağıdakı istiqamətlərdə formalaşdırılıb:

1. *Avropa Gənclər Siyasəti Strategiyası (2008-2013).* Bu strategiya gənclərin cəmiyyətə inteqrasiyası və onların sosial rifahının artırılması üçün hazırlanmış əsas sənədlərdən biridir. Strategiya beş əsas məqsədi vurğulayırdı [1]:

- Gənclərin ictimai və siyasi iştirakını artırmaq;
- Gənclər arasında tolerantlığı və çoxmədəniyyətliliyi təşviq etmək;
- Gənclərin məşğulluq imkanlarını artırmaq və işsizlik səviyyəsini azaltmaq;
- Gənclərin sağlamlıq və rifahını təmin etmək;
- Gənclərin təhsil və təlim imkanlarını genişləndirmək.

Bu strategiyanın əsas hədəfi gənclərin cəmiyyətin bütün sahələrində bərabər istirakını təmin etmək və onların inkişafına kömək etmək idi. Strategiya çərçivəsində dövlətlərdən gənclərlə bağlı milli proqramları inkişaf etdirmək və gənclərə uyğunlaşdırılmış siyasətləri həyata keçirmək tələb edilirdi.

2. *Avropa Şurasının Gənclərlə Bağlı Nizamnaməsi (2003).* Avropa Şurası 2003-cü ildə gənclərin hüquqlarının qorunması və onların inkişafını dəstəkləmək üçün xüsusi nizamnamə qəbul etdi. Bu nizamnamə gənclərin təhsil, məşğulluq, sosial təminat və mədəniyyət sahələrində hüquqlarını müdafiə etməyə yönəlmişdir. Nizamnamə çərçivəsində gənclərin demokratik iştirak hüququ vurğulanmış və onların ictimai həyatda daha fəal iştirak etməsi üçün hüquqi çərçivələr formalaşdırılmışdır. Nizamnamə gənclərin həm yerli, həm də beynəlxalq səviyyədə cəmiyyətə töhfə verməsini təmin etmək məqsədini daşıyırdı [9].

Avropa Şurasının gənclərlə bağlı qəbul etdiyi siyasət və proqramlar Avropa ölkələrində gənclər siyasətinin inkişafına mühüm töhfə verdi. Bu qanunverici baza çərçivəsində dövlətlər gənclərin hüquqlarını qorumaq, onların sosial və iqtisadi həyatda fəal istirakını təmin etmək üçün qanunvericilikdə islahatlar həyata keçirdilər. Avropa Şurasının gənclər siyasəti, həmçinin gənclər təşkilatlarına maliyyə və texniki dəstək verməklə onların fəaliyyəti üçün lazımi şərait yaratdı. Avropa Şurasının təşəbbüsləri sayəsində gənclər daha çox sosial və iqtisadi imkanlar əldə etdilər, onların təhsil və məşğulluq sahəsində hüquqları təmin olundu və demokratik proseslərdə iştirakları artırıldı. Bu siyasətin uğurlu tətbiqi gənclərin cəmiyyətin aktiv üzvünə çevrilməsinə və onların rifahının yüksəlməsinə yardım etdi.

Gənclərlə iş sahəsində beynəlxalq hüquqi çərçivə olaraq toxunacağımız sonuncu sənəd “Avropa İttifaqının Gənclər Siyasəti” strategiyasıdır. 2019-2027-ci illəri əhatə edən bu strategiya gənclərin sosial, iqtisadi və siyasi inkişafını təmin etmək məqsədilə qəbul edilmiş uzunmüddətli və hərtərəfli bir sənəddir. Bu strategiya Avropa İttifaqı daxilində gənclərin hüquqlarının qorunması və onların həyat keyfiyyətinin artırılması üçün geniş miqyaslı tədbirləri özündə birləşdirir. Strategiyanın əsas məqsədi gənclərin təhsil, məşğulluq, iştirak və rifah sahələrində bərabər imkanlara malik olmasını təmin etməkdir. Gənclərin təhsil səviyyəsinin yüksəldilməsi, əmək bazarına uğurlu inteqrasiyası və onların sosial cəhətdən təcrid olunmasının qarşısının alınması bu siyasətin prioritet istiqamətləridir. Xüsusilə rəqəmsal bacarıqların inkişafı iqlim dəyişikliyi ilə mübarizə və gənclərin demokratik iştirakını gücləndirmək üçün geniş təşəbbüslər həyata keçirilməkdədir [7]. Avropa İttifaqı gənclərin təhsil və təlim imkanlarını artırmaqla yanaşı, onların sivil cəmiyyətdə daha fəal rol oynamasını təşviq edir və bu çərçivədə qlobal əməkdaşlığı da dəstəkləyir. Gənclər siyasəti çərçivəsində Avropa İttifaqı, Erasmus + və Avropa Könüllü Xidməti kimi proqramlar vasitəsilə gənclərin hərtərəfli inkişafına və beynəlxalq mübadilələrinə böyük önəm verir. Bu strategiya, həmçinin, gənclərin təmsilçilik hüquqlarının təmin olunması və onların sosial inklüzivliyini artırmaq üçün xüsusi tədbirlər planlarını əhatə edir. Strategiya çərçivəsində gənclərlə bağlı qərarların qəbulunda onların səsi daha çox nəzərə alınır və yerli, milli, beynəlxalq səviyyələrdə gənclərin qərarqəbuletmə proseslərinə fəal cəlb olunması hədəflənir. Beləliklə, Avropa İttifaqının Gənclər Siyasəti (2019-2027) gənclərin Avropa daxilində daha inklüziv və rəqabətqabiliyyətli bir gələcəyini təmin etməyi qarşısına məqsəd qoymuşdur.

### 3. Gənclər səfiri (Youth Ambassador) proqramı və BMT Gənclər Assosiasiyası (UN Youth Association)

Gənclər səfiri (Youth Ambassador) proqramı Azərbaycanda gənclərin qlobal səviyyədə iştirakını təmin edən və onların beynəlxalq təşkilatlarla əməkdaşlığını genişləndirən önəmli təşəbbüsdür [2]. Bu proqram gənclərin beynəlxalq arenada Azərbaycanın maraqlarını və perspektivlərini müdafiə etməyə, eyni zamanda qlobal məsələlərdə səs qaldırmağa imkan yaradır. Azərbaycan proqram çərçivəsində seçilən gənclər, BMT və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək, müxtəlif məsələlər ətrafında dialoq aparır, beynəlxalq konfranslarda iştirak edir və gənclər arasında təcrübə mübadiləsi həyata keçirirlər. Bu proqram gənclərin diplomatik bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların liderlik qabiliyyətlərini də ön plana çıxarır. İlk dəfə Azərbaycanda tətbiq olunan bu təşəbbüs gənclərin beynəlxalq əlaqələrinin genişlənməsinə və onların qlobal məsələlərə töhfə verməsinə şərait yaradır. Proqram çərçivəsində gənclər təmsilçiləri BMT-də keçirilən Gənclər Siyasəti Forumu kimi tədbirlərdə iştirak edərək, qlobal problemlər və həll yolları ətrafında müzakirələrə qatılırlar. Bu forumlar gənclərin səsini daha yüksək səviyyələrə çatdırmaq, onların ideyalarını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün bir platforma rolunu oynayır [8].

BMT-nin Gənclər Assosiasiyası, gənclərin sülh və inkişaf məqsədlərinə töhfə verməsi üçün yaradılmışdır. Bu proqram vasitəsilə Azərbaycan gəncləri beynəlxalq problemləri müzakirə edir və qlobal qərarların qəbul edilməsində fəal iştirak edir. Bu proqram gənclərin sosial və iqtisadi məsələlər üzrə biliklərini artırmağa, onların liderlik potensialını inkişaf etdirməyə və qlobal sülh və təhlükəsizlik proseslərinə töhfə verməyə şərait yaradır. Azərbaycanın *UN Youth Association* çərçivəsində gənclərin iştirakı onların beynəlxalq təmsilçilik səviyyəsini daha da artırır. Gənclər Assosiasiyası çərçivəsində gənclər sülh, təhsil, gender bərabərliyi, ətraf mühitin mühafizəsi və digər mühüm qlobal məsələlər üzərində işlər görürlər. Bu təşəbbüs gənclərin qlobal problemlər üzərində düşünməsini və dünya ölkələri ilə əməkdaşlıq edərək, bu məsələlərə həll yolları tapmasını təşviq edir.

*Youth Policy Forum* Azərbaycanda ilk dəfə təşkil edilən beynəlxalq səviyyəli tədbirlərdən biridir. Bu forumun məqsədi Azərbaycanın gənclər siyasətinin qlobal səviyyədə tanıdılması və gənclərin qlobal məsələlərdə fəallığını artırmaq olmuşdur. Forum çərçivəsində gənclər, dövlət rəsmiləri və beynəlxalq təşkilatların nümayəndələri bir araya gələrək, qlobal çağırışlar və həll yolları barədə müzakirələr aparırlar. Azərbaycanda keçirilən *Youth Policy Forum* gənclərin təcrübə və biliklərini paylaşmaları üçün bir platforma olmaqla yanaşı, onların qlobal arenada səs qaldırmalarına da şərait yaratmışdır. Forum çərçivəsində gənclər tərəfindən təqdim edilən təkliflər və həll yolları, BMT və digər beynəlxalq təşkilatlar tərəfindən diqqətlə izlənmiş və bu təkliflər qlobal gənclər siyasətinin inkişafında nəzərə alınmışdır.

Dayanıqlı İnkişaf Məqsədləri (DİM) çərçivəsində gənclərin rolu 2030 Gündəliyinin əsas prinsipini təşkil edir – "heç kim kənarda qalmamalıdır". Bu məqsədlər bütün millətləri, xalqları və yaş qruplarını əhatə edərək cəmiyyətlərin davamlı inkişafını təmin etməyə çalışır. Gənclər DİM-lərin uğurla həyata keçirilməsində əsas agentlərdən biri kimi qəbul edilir və onların potensialını tam şəkildə reallaşdırmaqla gələcək nəsillər üçün daha yaxşı dünya təmin edilməsi məqsədilə hərəkətə keçmələri vacibdir. Gənclər üçün xüsusilə dörd sahə ön plana çıxır: gənclərin məşğulluğu, yeniyetmə qızlar, təhsil və idmanın sülhə töhfəsi. Gənclərin bu sahələrdə oynadıqları rolun önəmi, onların təhsil almaq və layiqli iş tapmaq imkanları ilə birbaşa bağlıdır. DİM 4 (Keyfiyyətli Təhsil) və DİM 8 (Layiqli İş və İqtisadi İnkişaf) kimi məqsədlər gənclərin inkişafı üçün təməl şərtləri təmin edir, çünki təhsilə bərabər çıxış və iqtisadi müstəqillik gənclərin gələcək uğurlarına zəmin yaradır. Hələ də dünya üzrə təhsildə ciddi bərabərsizliklərin olması və çox sayda gəncin işsizlik və pis iş şəraiti ilə qarşılaşdığı dövrdə, bu sahələrdə atılacaq addımlar vacibdir. Eyni zamanda,

DİM 13 (İqlim Dəyişikliyi ilə Mübarizə) gənclərin iqlim dəyişikliyi məsələlərində mühüm iştirakını vurğulayır [5]. Gənclər iqlim dəyişikliyinin qurbanları olmaqla yanaşı, onunla mübarizədə əsas hərəkatçılardır – təhsildən və texnologiyadan istifadə edərək iqlim böhranını həll etmək üçün innovativ həll yolları təklif edirlər. göstərir. Bu lim dəyişikliyinə qarşı aksiyalarda və innovativ təşəbbüslərdə fəal iştirakı, on kontekstdə, BMT-nin baş katibinin gənclərin iqlim dəyişikliyi üzrə məsləhət Gənclərin iq ların dünya səviyyəsində dəyişikliklər yarada bilən qüvvə olduğunu qrupunu yaratması gənclərin səsinə daha çox diqqət ayırma məqsədi daşıyır.

**Nəticə**

Tədqiqatın nəticəsi olaraq qeyd etmək olar ki, beynəlxalq çərçivə sənədləri arasında BMT-nin Uşaq Hüquqları Konvensiyası gənclərlə iş sahəsində əsas yer tutur. Bu sənəd dövlətləri gənclərin hüquqlarını müdafiə etməyə və onların inkişafı üçün əlverişli şərait yaratmağa təşviq edir. Konvensiyanın əsas prinsipləri arasında təhsil, sağlamlıq və sosial rifah sahələri xüsusi əhəmiyyət daşıyır. Dövlətlərin bu müddəaları həyata keçirməsi gənclərin gələcəyinin təminatı baxımından olduqca vacibdir. Eyni zamanda, Avropa Şurasının gənclərlə bağlı siyasətləri isə 2000-ci illərdən etibarən gənclərin hüquqlarının qorunması və inkişafı istiqamətində geniş miqyaslı proqramların həyata keçirilməsinə təkan verdi. Şura, gənclərin sosial və iqtisadi həyatda fəal iştirakını təmin etmək və onların təhsil səviyyəsini yüksəltmək üçün önəmli addımlar atdı. Bununla yanaşı, BMT-nin 2018-2030 Gənclər Strategiyası da gənclərin hüquqlarının müdafiəsi və onların inkişafına dəstək üçün vacib tədbirlər nəzərdə tutur. Strategiya gənclərin sosial, iqtisadi və siyasi sahələrdə bərabər iştirakını təmin etmək üçün genişmiqyaslı proqramların həyata keçirilməsini hədəfləyir. Təhsil, məşğulluq, sağlamlıq və insan hüquqları sahələrində gənclərin hüquqlarının qorunması və onların qlobal proseslərə inteqrasiyası bu sənədin əsas məqsədlərindəndir. Strategiyanın tətbiqi gənclərin qlobal inkişaf proseslərində fəal iştirakına və sosial rifahlarının artırılmasına təkan verir.

Beynəlxalq qanunvericilik çərçivələri Azərbaycanın gənclər siyasətinə də mühüm təsir göstərmişdir. BMT-nin Uşaq Hüquqları Konvensiyası və Gənclər Strategiyası Azərbaycanın milli qanunvericiliyinin gənclərin təhsil, sağlamlıq və sosial müdafiəsi sahələrində formalaşmasına kömək etmişdir. Azərbaycanın gənclər siyasəti beynəlxalq prinsiplərə uyğun şəkildə sosial rifahın artırılması, işsizlik səviyyəsinin azaldılması və gənclərin cəmiyyətdə daha fəal iştirakının təmin edilməsi məqsədlərini özündə birləşdirir. Eyni zamanda, Avropa Şurası və Avropa İttifaqının gənclərlə bağlı siyasətləri də Azərbaycanın gənclərinin təhsil və məşğulluq imkanlarının genişləndirilməsində mühüm rol oynamışdır. Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində gənclər üçün təqaüd və mübadilə proqramları genişlənmiş, peşə təlimləri təşkil edilmişdir. Bu beynəlxalq çərçivələr gənclərin qlobal inteqrasiyasına və Azərbaycanın gənclər siyasətinin inklüziv və rəqabətqabiliyyətli olmasına töhfə vermişdir.

Azərbaycanda həyata keçirilən *Youth Ambassador* Proqramı, *UN Youth Association* və *Youth Policy Forum* kimi təşəbbüslər gənclərin beynəlxalq səviyyədə fəal iştirakını təmin edən əsas mexanizmlərdir. Bu proqramlar vasitəsilə Azərbaycan gəncləri, qlobal məsələlərdə söz sahibi olmağa, beynəlxalq arenada təmsil olunmağa və öz ölkələrinin maraqlarını müdafiə etməyə imkan qazanırlar. Eyni zamanda, bu təşəbbüslər gənclərin liderlik bacarıqlarını inkişaf etdirir və onların qlobal vətəndaşlar kimi formalaşmasına şərait yaradır. Azərbaycanın beynəlxalq səviyyədə gənclərə yönəlmiş siyasətinin genişlənməsi gələcəkdə daha çox gəncin qlobal problemlərin həllində fəal rol oynayacağına və Azərbaycanın beynəlxalq arenada mövqeyinin daha da güclənəcəyinə zəmin yaradır. Gənclərin inkişafına və təmsilçiliyinə yönəlmiş bu model, Azərbaycanın gələcək nəsillərinin daha çox uğur qazanmasına kömək edəcəkdir.

## ƏDƏBİYYAT

1. An EU Strategy for Youth – Investing and Empowering: A renewed open method of coordination to address youth challenges and opportunities. (https://eur-lex.europa.eu/LexUriServ/LexUriServ.do?uri=COM:2009:0200:FIN:EN:PDF(
2. Bourne R. Two types of Youth Ambassador – a telling contrast. The Round Table, 2020. 109(3), 342–343. (https://doi.org/10.1080/00358533.2020.1757289)
3. Convention on the Rights of the Child. New York, 20 November 1989. (https://treaties.un.org/doc/Treaties/1990/09/19900902%2003-14%20AM/Ch_IV_11p.pdf)
4. Convention on the Rights of the Child. (https://treaties.un.org/Pages/ViewDetails.aspx?src=TREATY&mtdsg_no=IV-11&chapter=4&clang=_en)
5. Global Issues: Youth. (https://www.un.org/en/global-issues/youth)
6. International Youth Year: Participation, Development, Peace. (https://documents.un.org/doc/resolution/gen/nr0/477/21/pdf/nr047721.pdf)
7. Krzaklewska, E., Martelli, A. & Pitti, I. NextGenerationEU as a (more) youth-friendly Europe? International Review of Sociology, 2023, 33(1), pp. 65–79. (https://doi.org/10.1080/03906701.2023.2187831)
8. Li, X. Rethinking youth policy model in Europe and its constituents: civic learning and civic engagement. Urban Research & Practice, 2019, 13(1), pp. 97–108. (https://doi.org/10.1080/17535069.2019.1667135)
9. Revised European Charter on the Participation of Young People in Local and Regional Life. (https://rm.coe.int/168071b4d6)
10. United Nations Juridical Yearbook: 1969. (https://legal.un.org/unjuridicalyearbook/pdfs/english/by_chapter/chpIII/1969/chpIII.pdf)
11. United Nations Millennium Declaration. (https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/united-nations-millennium-declaration)
12. YOUTH 2030: Working with and for young people. (https://www.un.org/youthenvoy/wp-content/uploads/2018/09/18-00080_UN-Youth-Strategy_Web.pdf )

***Резюме***

***Мурад Гасанханлы***

***Международные нормативные регулирования и стандарты по работе с молодежью***

В нашем исследовании анализируется значение международных нормативных регуляций и стандартов в области работы с молодежью, а также их влияние на национальное законодательство. Основной целью исследования является оценка роли Конвенции ООН о правах ребенка и Стратегии ООН по делам молодежи (2018-2030) в защите прав молодежи и расширении их социальных, экономических, образовательных и возможностей для участия. Эти документы призывают государства защищать права молодежи и поддерживать их интеграцию в общество. Международные правовые рамки, направленные на обеспечение прав на здравоохранение, образование и занятость молодежи, представляют собой важные механизмы для устойчивого развития. В статье также изучается влияние политики Совета Европы и Европейского Союза в отношении молодежи. Совет Европы с 2000-х годов реализовал масштабные программы, направленные на защиту прав молодежи и увеличение их активного участия в обществе. Эти инициативы способствовали расширению социальных и экономических возможностей молодежи, повышению их благосостояния и обеспечению их участия в демократических процессах. Стратегия Европейского Союза по делам молодежи (2019–2027) уделяет особое внимание развитию цифровых навыков и увеличению активности молодежи в борьбе с изменением климата. Часть исследования посвящена анализу соответствия национального законодательства Азербайджана этим международным стандартам. Установлено, что молодежная политика Азербайджана сформирована в соответствии с международными стандартами, что способствует расширению возможностей молодежи в образовании, занятости и социальной сфере. В частности, такие инициативы, как программа Youth Ambassador и UN Youth Association, обеспечивают активное

участие азербайджанской молодежи в глобальных процессах и развивают их возможности для международного представительства. Эти инициативы играют важную роль в формировании инклюзивной и конкурентоспособной молодежной политики Азербайджана. В итоге международные нормативные рамки и стандарты играют ключевую роль в защите прав молодежи и обеспечении их интеграции в общество. Молодежная политика Азербайджана развивается в соответствии с этими рамками, что позволяет обеспечивать более активное участие молодежи в социальных, экономических и политических сферах благодаря международному сотрудничеству.

**Ключевые слова:** *работа с молодежью, международное право, международные стандарты, законодательство, ООН, Европейский Союз, Совет Европы*

***Summary***

***Murad Hasankhanli***

***International Normative Regulations and Standards on Youth Work***

Our research analyzes the significance of international normative regulations and standards in the field of youth work and their impact on national legislation. The main objective of the study is to assess the role of the United Nations Convention on the Rights of the Child and the United Nations Youth Strategy (2018–2030) in protecting youth rights and expanding their social, economic, educational, and participatory opportunities. These documents urge states to protect youth rights and support their integration into society. The international legal frameworks proposed to ensure youth rights in health, education, and employment serve as critical mechanisms for sustainable development. The article also examines the impact of the Council of Europe and European Union policies on youth. Since the 2000s, the Council of Europe has implemented large-scale programs aimed at protecting youth rights and increasing their active participation in society. These policies have contributed to expanding social and economic opportunities for youth, enhancing their well-being, and ensuring their participation in democratic processes. The European Union Youth Strategy (2019–2027) focuses particularly on developing digital skills and increasing youth engagement in combating climate change. A part of the study analyzes the compliance of Azerbaijan's national legislation with these international standards. It is shown that Azerbaijan's youth policy has been developed in alignment with international standards, fostering the expansion of opportunities for education, employment, and social welfare among youth. Specifically, initiatives such as the Youth Ambassador Program and the UN Youth Association enable Azerbaijani youth to participate actively in global processes and develop their capacity for international representation. These initiatives significantly contribute to making Azerbaijan's youth policy more inclusive and competitive. In conclusion, international normative frameworks and standards play a decisive role in protecting youth rights and ensuring their integration into society. Azerbaijan's youth policy has been developed in accordance with these frameworks, facilitating more active participation of youth in social, economic, and political spheres through international cooperation.

**Key words:** *youth work, international law, international standards, legislation, UN, European Union, Council of Europe*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.